# Cəbrayıl - Qayıdışın yeni ünvanı









**"Əminəm ki, təqribən 5 il ərzində elə bir yeni Qarabağ, yeni Zəngəzur quracağıq ki, bütün dünya bizə qibtə edəcək". Prezident İlham Əliyevin bu fikirlərinin reallaşmasının, işğaldan azad olunmuş ərazilərimizdə irimiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirilməsinin, keçmiş məcburi köçkünlərin yurdlarına qayıtmasının hər gün şahidi oluruq.**

Yurda qayıdış sevincini yaşamaq Cəbrayıl sakinlərinə də nəsib oldu. Böyük qayıdış proqramına əsasən, yenidən qurulan Cəbrayıl şəhəri dünən ilk köçünü qarşıladı. 36 ailə, 117 nəfər uzun illərdir həsrətini çəkdikləri doğma ocaqlarına qayıtdılar.

1993-cü ildə işğal olunan Cəbrayılın Zəfər tariximizdə xüsusi yeri var. Böyük qayıdışımız 2016-cı ilin Aprel döyüşlərində Cəbrayılın Cocuq Mərcanlı kəndinin azad olunması ilə başlayıb. İkinci Qarabağ müharibəsindəki ilk uğurlarımızdan biri məhz Cəbrayıl ilə bağlıdır. Döyüşlərin birinci həftəsində şəhərin azad olunması Vətən müharibəsinin mühüm hadisəsinə çevrildi.

Cəbrayıl şəhəri azadlığına qovuşduqdan sonra məlum oldu ki, şəhərdən əsər-əlamət qalmayıb, bütün binalar yerlə yeksan edilib.

İşğaldan azad olunan bütün ərazilər kimi, Cəbrayılda da bərpa-quruculuq işləri sürətlə davam edir. Cəbrayıl şəhərinin mərkəzində ümumi sahəsi 7,9 hektar olan yaşayış kompleksi salınıb. Altı kvartaldan ibarət kompleksin inşası sürətlə həyata keçirilir. Burada 4-5 mərtəbəli olmaqla, 33 yaşayış binası tikilir. Bu binalarda 712 mənzil olacaq. Onların 8-nin birotaqlı, 136-sının ikiotaqlı, 8-nin ikiotaqlı studio tipli, 392-sinin üçotaqlı, 168-nin isə dördotaqlı olması nəzərdə tutulur.

Tam təmirli mənzillər mətbəx mebeli, su, qaz və elektrik sayğacları ilə təchiz edilir. Binalar liftlə və mərkəzləşdirilmiş qazanxana vasitəsilə istiliklə təmin olunur. Yaşayış binaları ilə yanaşı, ərazidə park, sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, istirahət guşələri, uşaq oyun və idman meydançaları da istifadəyə verilir.

Keçmiş məcburi köçkünlərin doğma yerlərinə qayıtması ilə yanaşı, bu bölgənin iqtisadi potensialından istifadə edilməsi, orada yaşayan əhalinin məşğulluğunun təmin olunması, həmçinin digər sosial problemlərin həlli də dövlətin diqqət mərkəzindədir. İşğaldan azad edilmiş torpaqlarımız zəngin "yaşıl enerji" istehsal etmək potensialına da malikdir. Tezliklə Cəbrayılda da günəş enerjisi stansiyası tikiləcək.

Əzəli yurdlarına qovuşan cəbrayıllıları qarşıda daha bir xoş gün gözləyir. Prezidentin sərəncamına əsasən, 44 günlük Vətən müharibəsindəki Zəfərimizdən sonra hər il 4 oktyabr - Cəbrayıl Şəhəri Günü kimi təntənəli şəkildə qeyd olunur. 30 ilə yaxın ən ağır sınaqlardan keçən, illərlə məşəqqətlər içərisində yaşayan cəbrayıllılar bu il bayramı öz doğma torpaqlarında keçirəcəklər.

Qarabağ və Şərqi Zəngəzurda nəhəng bərpa-quruculuq işləri davam edir. Qısa müddət ərzində bir çox layihə başa çatdırılıb. İndiyə qədər görülən işlər minlərlə vətəndaşımızın doğma yurdlarına qayıtmasına şərait yaradıb. Artıq 2147 ailə - 8270 nəfər əzəli yurdlarına geri dönüb. 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 822 ailə (3132 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 204 ailə (763 nəfər) Şuşa şəhərində, 44 ailə (169 nəfər) Xocalı şəhərində, 36 ailə (117 nəfər) Cəbrayıl şəhərində məskunlaşıb.

Tezliklə bütün keçmiş məcburi köçkünlərin əzəli yurdlarına qovuşmasına şahid olacağıq.

***Ü.XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 27 sentyabr (№ 211).- S.14.